# İFAÇILIQ...

## HOLLANDİYADA NOVRUZ BAYRAMI ŞƏNLİYİ

Bu il, mart ayının 13 - də xalqımızın müqəddəs Novruz bayramının gəlişi münasibətilə Hollandiyanın Heerlen şəhərində xeyriyyə tədbiri keçirilmişdir. Tədbirin təşkilatçısı, "Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birlik" cəmiyyətinin sədri İradə Uluxanlının lent. az - a verdiyi məlumata görə, tədbirdə Azərbaycanın tarixi, mədəniyyəti, maddi və mənəvi sərvətləri təbliğ olunub. Bunları nümayiş etdirən müxtəlif stendlər hazırlanıb. Tədbirdə iştirak edən Holland - Azərbaycan cəmiyyətinin sədri, Azərbaycanın Niderland Krallığındakı səfirinin birinci müavini Elxan Ələsgərov və digər rəsmi qonaqlar bayram şənliyinin zəngin musiqi proqramından xüsusi zövq aldıqlarını bildirmişlər.

Tədbirdə Novruz bayramının mənşəyi, onun milli xüsusiyyətləri, adət və ənənələri haqqında geniş məlumat verilmiş, bayramımıza uyğun milli mahnı və rəqslər ifa olunmuşdur. Həm azərbaycanlıların, həm də hollandların müştərək iştirakı ilə həyata keçirilən Bahar bayramı şənliyi yaddaqalan olub.

Novruz bayramında süfrəmizin bəzəyi olan şirniyyat növləri - qoğal, fəsəli, paxlava, şəkərbura, rəngbərəng boyanmış yumurta və plov bişirilərək, tədbir iştirakçılarına təqdim olunmuşdur.

Tədbirdə holland məktəbliləri Azərbaycan dilində şer söyləyərək, yallı rəqsi ifa ediblər. Fransız fleyta ifaçısı İsabel Dosne "Sarı gəlin" Azərbaycan xalq mahnısını səsləndirib. Alman pianoçusu Michael Tunger Tofiq Quliyevin, Arif Məlikovun əsərlərini ifa edib. Tədbirə gətirilən, xalq arasında geniş yayılmış plov isə holland məktəblisinin "Sarı gəlin" sədaları altında qonaqlara təqdim olunub. Bayram tədbiri haqda məqalələr yerli mətbuat orqanı olan "Limburqs Dagblad" və "De limburger" qəzetlərində dərc edilib.

Tədbirdə iştirak edən həmyerlimiz, hazırda Türkiyənin Tokat Universitetinin Egitim Fakültesi Güzel Sanatlar Bölümü Müzik Eyitimi Anabilim Dalının dosenti, skripka ustası Lalə Hüseynova - Həsənovanın pianoçu M. Tungerin müşayiəti ilə dinləyicilərə təqdim etdiyi Azərbaycan bəstəkarlarının əsərləri böyük rəğbətlə qarşılanıb.



Soldan sağa: İsabel Dosne, Mikael Tunger, Lalə Hüseynova-Həsənova, Jato Qubbel

Qeyd edək ki, Hollandiyada Novruz Bayramı şənliyi ilə əlaqədar keçirilən tədbir skripkaçı Lalə Hüseynova - Həsənovanın ölkə xaricində ilk çıxışı deyil. Azərbaycan musiqi mədəniyyətini müxtəlif illərdə Gürcüstan, Türkiyə, Kuzey Kıprıs Türk Cümhuriyyətində təmsil edən musiqiçinin bu dəfə Hollandiyada verdiyi bayram konserti də xüsusi əhəmiyyət kəsb edib. Xeyriyyə Tədbirindən toplanılan vəsait xalqımızın bu əziz günündə "Vahid, Bölünməz və Demokratik Azərbaycan Uğrunda Birlik" cəmiyyətinin Bakıdakı "Gözdən Əlillər Cəmiyyəti "nə göndərilib.

*Kəmalə ƏLƏSGƏRLİ*

MUSİQİ DÜNYASI 1-2/43 2010